## İxrac yönümlü iqtisadi model

Respublikanın uzunmğddətli inkişafını təmin edəcək strateji əhəmiyyətli sənəd - «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının layihəsi mğzakirəyə zıxarılmışdır

*İnkişafın prioritetləri*

Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli sərəncamına əsasən hazırlanmış Konsepsiya layihəsində 2020-ci ilədək respublika iqtisadiyyatının inkişafının başlıca təmayülləri öz əksini tapmış, ümumi daxili məhsulun sürətli artımına hansı resurslar hesabına nail olunması dolğun və əhatəli şəkildə göstərilmişdir.

Kifayət qədər dərin elmi araşdırmaya, zəngin faktoloji bazaya və reallığa uyğun makroiqtisadi proqnozlara əsaslanan «Azərbaycan - 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası layihəsinin səmərəli ictimai müzakirələr nəticəsində daha da təkmilləşdirilməsi nəzərdə tutulur. Mündəricat və 11 bölmədən ibarət sənəddə son 10 ildəki inkişaf parametrləri əsasında ölkə iqtisadiyyatının mövcud durumu, qlobal və yerli zərurətlər təhlil edilmiş, yüksək rəqabət qabiliyyətli iqtisadi sistemin formalaşdırılması ilə bağlı prioritetlər göstərilmişdir.

Sənədin ayrı-ayrı bölmələrində səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması; iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı; elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi; nəqliyyat, tranzit və maddi-texniki təchizat infrastrukturunun təkmilləşdirilməsi; bölgələrin tarazlaşdırılmış inkişafı; informasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi; insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması; səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələrin həlli; müasir təhsil sisteminin formalaşdırılması; sosial müdafiə sisteminin təkmilləşdirilməsi; gender bərabərliyi, ailənin inkişaf etdirilməsi; gənclərin potensialının və idmanın inkişafı; qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi; mədəni irsin qorunması və səmərəli idarə edilməsi; ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həlli məsələləri ilə bağlı yer almış təklif, rəy və proqnozlar xüsusi diqqət çəkir.

*Hər bir vətəndaş üçün əlverişli məkan*

Konsepsiya layihəsinin giriş hissəsində ölkə iqtisadiyyatının 90-cı illərin əvvəllərindən bu günədək keçdiyi mürəkkəb inkişaf yoluna nəzər salınır, 2003-cü illə müqayisədə 2011-ci ildə real ümumi daxili məhsulun 3 dəfə artdığı, Azərbaycanın Cənubi Qafqaz üzrə yaradılan əlavə dəyərin 70%-dən çox hissəsinə sahib olduğu vurğulanır. Sənəddə bu illərdə ölkənin strateji valyuta ehtiyatlarının 22 dəfə artaraq 41 milyard dollara çatması və xarici dövlət borcunu 10 dəfə üstələməsi, yoxsulluğun səviyyəsinin 7,6%-ə düşməsi, sosial sahəyə, təhsilə, elmə, səhiyyəyə ayrılan vəsaitlərin dəfələrdə artması müsbət göstəricilər kimi xarakterizə olunur.

Ümumilikdə, Konsepsiyanın məqsədi mövcud imkanları və resursları nəzərə almaqla Azərbaycanda davamlı iqtisadi artımı, yüksək sosial rifahı və səmərəli dövlət idarəçiliyini təmin etməkdir. Layihədə qeyd olunur ki, qarşıya qoyulmuş məqsədlərin həyata keçirilməsi nəticəsində Azərbaycan 2020-ci ildə iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, bütün sahələrdə rəqabətqabiliyyətli ölkə olacaqdır: «Azərbaycanın ən ucqar kəndlərində belə vətəndaşların rahat gündəlik həyatı üçün bütün lazımi kommunikasiyalar (rabitə, internet, bank xidmətləri, kommunal xidmətlər, yollar və sair), səhiyyə və təhsil xidmətləri təmin ediləcəkdir. Azərbaycan əhalinin gəlirlərinin yüksək, işsizlik səviyyəsinin minimum həddə olduğu, inkişaf etmiş insan kapitalına, mühafizə edilmiş, sağlam ətraf mühitə və hər bir vətəndaşı üçün geniş imkanlara malik məkan olacaqdır».

*Adambaşına ÜDM 13 min dollara çatacaq*

Konsepsiyada nəzərdə tutulmuş tədbirlərin icrası nəticəsində 2020-ci ilədək ölkədə adambaşına düşən ÜDM-in həcminin iki dəfədən çox artaraq 13 min ABŞ dollarına çatdırılacağı gözlənilir. Həmin dövrədək Azərbaycanın Dünya Bankının adambaşına düşən ümumi milli gəlir təsnifatına görə «yuxarı orta gəlirli ölkələr», habelə BMT İnkişaf Proqramının insan inkişafı ilə bağlı təsnifatına görə «yüksək insan inkişafı ölkələri» qrupunda üstün mövqelərə yüksəlməsi hədəf kimi qarşıya qoyulur.

Qarşıya qoyulmuş əsas vəzifələrdən biri də respublikanın beynəlxalq iqtisadi münasibətlər sistemində yüksək rəqabət qabiliyyətinə malik ölkəyə çevrilməsidir. Bu məqsədlə respublikanın regionun ticarət mərkəzinə çevrilməsi, qeyri-neft sektoru üzrə adambaşına düşən ixrac həcminin 1000 ABŞ dollarına çatdırılması proqnozlaşdırılır. Göstərilən məqsədlərə nail olunması üçün sağlam rəqabəti təmin edən səmərəli dövlət tənzimlənməsinin həyata keçirilməsi, enerjidən səmərəli istifadə edən və yüksək əlavə dəyər yaradan ixrac yönümlü iqtisadiyyatın formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılacaqdır.

2020-ci lədək inflyasiyanın məqbul səviyyədə saxlanılması, daha çevik məzənnə rejiminə keçidin təmin olunması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur. Neft-qaz sektorunun, neft-kimya sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin şaxələndirilməsi, alternativ və bərpa olunan enerji mənbələrindən istifadə imkanlarının genişləndirilməsi, aqrar sektorun inkişafı, ərzaq təhlükəsizliyinin təmini, ticarət və xidmət növlərinin genişləndirilməsi, xarici ticarətin, investisiyaların strukturunun təkmilləşdirilməsi prioritet istiqamətlər olacaqdır. Konsepsiyanın əhatə etdiyi dövr ərzində qeyri-neft sektoru üzrə ÜDM-in orta illik artım tempinin 7%-dən yüksək olması nəzərdə tutulur.

*İKT infrastrukturu müasirləşdiriləcək*

«Azərbaycan-2020: Gələcəyə baxış» İnkişaf Konsepsiyasının layihəsinə görə, ölkənin yaxın perspektivdə inkişafı, əsasən, ixrac yönümlü iqtisadi modelə əsaslanacaqdır. Sənəddə göstərilir ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi və strukturunun təkmilləşdirilməsi qeyri-neft ixracının artımına səbəb olacaqdır. Qeyri-neft sənayesinin inkişafı ilə yanaşı, innovasiya fəaliyyətinin genişləndirilməsinə, biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılmasına diqqət artırılacaqdır. Bundan başqa, İKT və rabitə xidmətlərindən istifadə imkanlarının genişləndirilməsi, informasiya və kommunikasiya texnologiyaları sahəsində etibarlı təhlükəsizlik sisteminin yaradılması, ölkə üzrə tam rəqəmsal yayımın, «e-hökumət» xidmətlərinin 100% tətbiqi Azərbaycanın müasir dövlət kimi formalaşmasının əsas prioritetləri kimi diqqət mərkəzində saxlanılacaqdır.

Samir MUSTAFAYEV